**Macarıstanın Budapeşt şəhərində "Milli ev təsərrüfatları tədqiqatından ərzaq məhsullarının istehlakı barədə əldə edilən məlumatlardan istifadə olunaraq ərzaq təhlükəsizliyi təhlilinin aparılması"na dair seminar keçirilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı statistikası şöbəsinin müdiri Yaşar Paşa 2013-cü il 3-7 iyun tarixlərində Macarıstanın Budapeşt şəhərində "Milli ev təsərrüfatları tədqiqatından ərzaq məhsullarının istehlakı barədə əldə edilən məlumatlardan istifadə olunaraq ərzaq təhlükəsizliyi təhlilinin aparılması"na dair keçirilmiş seminarda iştirak etmişdir. Seminarda Albaniya, Azərbaycan, Gürcüstan, Macarıstan, Moldova, Qırğızıstan, Türkiyə və Ermənistanın nümayəndələri iştirak etmişlər.

Seminarda iştirak edən ölkələrin statistika qurumlarının nümayəndələri hər bir ölkədə həyata keçirilən ev təsərrüfatları tədqiqatının metodologiyası, sorğu anketləri, məlumatların toplanması, məntiqi və riyazi nəzarətlərin yerinə yetirilməsi, istifadə olunan proqram təminatları barədə geniş məlumat vermişlər.

Seminarda ərzaq və qida təhlükəsizliyi üzrə məlumatların əldə edilməsi yolları müzakirə olunmuşdur. Daha sonra Dünya Bankı və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ekspertlərinin milli statistika qurumlarının mütəxəssisləri üçün hazırladıqları ADePT proqram təminatı iştirakçılara geniş şəkildə təqdim edilmişdir. Tərtib olunmuş proqram təminatı yüksək analitik keyfiyyətə malikdir. Proqram təminatı vasitəsi ilə geniş təhlillərin aparılması, çoxölçülü cədvəllərin alınması, müxtəlif riyazi modellərin qurulması, təsviri statistika və məlumatların keyfiyyət göstəricilərinin hesablanması və bu kimi işlərin yerinə yetirilməsi mümkün olacaqdır. Qeyd olunan proqram təminatı SPSS və STATA məlumat bazaları ilə işləyir və yalnız Dövlətstatkomda istifadə olunan dəyişən adların proqrama tanıdılması tələb olunur, cədvəllərin alınması isə proqram vasitəsilə həyata keçirilir. Proqram təminatından ev təsərrüfatlarının tədqiqatı ilə yanaşı, ərzaq təhlükəsizliyi, təhsil, gender, səhiyyə, əmək bazarı, yoxsulluq və sosial müdafiə statistikası üzrə məlumatlardan istifadə etməklə tətbiq oluna və müvafiq cədvəllər alına bilər.